DOI: https://doi.org/10.36719/2789-6919/35/45-49

Təranə Hüseynova
Naxçıvan Dövlət Universiteti
teranehuseynova24@gmail.com
Orcid 0009-0001-7945-2004

AQŞİN ƏLİZADƏ YARADICILIĞININ AZƏRBAYCAN MUSİQİSİNDƏ ROLU

Xülasə

Azərbaycan musiqi mədəniyyətində konsert janrının yaradılması Üzeyir Hacıbəylinin musiqili - səhnə əsərlərindəki rəqs nömrələrində müşahidə olunur. Bəstəkar Aqşin Əlizadə öz təkrarsız yaradıcılığı ilə Azərbaycan musiqi mədəniyyətində bir iz qoymuşdur. Azərbaycan musiqi mədəniyyətinin inkişafında misilsiz xidmətləri olmuş bəstəkarlardan Qara Qarayev, Süleyman Ələsgərov, Tofiq Bakıxanov, Azər Rzayev, İsmayıl Hacıbəyov, Aqşin Əlizadə konsert janrına müraciət etmişlər. Müxtəlif illərdə yazılan bu konsert nümunələri bir növ Azərbaycan musiqisinin keçdiyi inkişaf yolunu sanki təcəssüm etdirir.

Aqşin Əlizadə bir peşəkar bəstəkar kimi yaradıcılığı çoxşaxəlidir. İstər irihəcmli, istərsə də kiçik həcmli əsərlərində hər zaman ümumbəşəri-sülh, əmin-amanlıq, insanların anaya, vətənə, torpağa, bir-birinə olan sevgi hissi ilə bağlı mövzularla yanaşı, milli dəyərlərə olan bağlılığı, onun qorunması uğrunda mübarizliyi, mövzulardakı müasir baxışı, aktuallığı hər zaman dinləyiciləri düşünməyə, səfərbərliyə, səmimiliyə çağırır. Bu ilk növbədə onun peşəkarlığının, zəngin dünyagörüşünün, gördüyü hər bir işə can yandıraraq olduqca həssaslıqla yanaşmasından irəli gəlir.

Aqşin Əlizadə Azərbaycan musiqi mədəniyyətinin inkişafında ictimai xadim kimi böyük işlər görmüşdür. Aqşin Əlizadənin musiqisinin bir çox xarakterik cizgiləri, melodikasının vokal təbiəti məhz bu sahənin xüsusiyyətlərindən yarandığını görürük. Əsərlərindəki öz musiqisinə möhkəm bağlılığı, parlaq melodizm diqqəti cəlb edir. Bəstəkar Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin katibi (1979-1985-ci illərdə), 1985-1990-cı illərdə birinci katib olmuşdur. 60 illik yubileyi münasibətilə "Şöhrət" ordeni ilə təltif olunmuşdur. Bakı Musiqi Akademiyasının gənc musiqiçi nəslin yetişməsində böyük xidmətləri vardır.

Açar sözlər: *Azərbaycan, Üzeyir Hacıbəyli, Aqşin Əlizadə, bəstəkar, musiqi*

Tarana Huseynova
Nakhchivan State University
teranehuseynova24@gmail.com
Orchid 0009-0001-7945-2004

Azerbaijan creation of Aqshin Elizade role in music

Abstract

The creation of the concert genre in the musical culture of Azerbaijan can be seen in the dance numbers in Uzeyir Hajibeyli's musical and stage works. Composer Aghshin Alizade has left a mark in Azerbaijani musical culture with his unique creativity. Kara Garayev, Suleyman Alasgarov, Tofig Bakikhanov, Azer Rzayev, Ismayil Hajibeyov, Agshin Alizadeh, among the composers who have made unparalleled contributions to the development of Azerbaijani musical culture, turned to the concert genre. These examples of concerts written in different years literally embody the development path of Azerbaijani music.

Aqshin Alizade's creativity as a professional composer is multifaceted. In his large-scale and small-scale works, he always deals with topics related to universal peace, tranquility, people's feelings of love for the mother, motherland, land, and each other, as well as the attachment to national values, the struggle for its protection, his modern view of the issues, its relevance always calls listeners to think, mobilize, and be sincere. First of all, this is due to his professionalism, rich worldview, and very sensitive approach to everything he does.

Agshin Alizade has done great work as a public figure in the development of Azerbaijani musical culture. We see that many characteristic features of Aqshin Alizade's music, the vocal nature of melodics, originate from the specifics of this field. His strong commitment to his own music, bright melodism in his works attracts attention. The composer was the secretary of the Board of Directors of the Union of Composers of Azerbaijan (1979-1985), first secretary in 1985-1990. On the occasion of his 60th anniversary, he was awarded the Order of Glory. The Baku Music Academy has great merit in the development of the young generation of musicians.

Keywords: *Azerbaijan, Uzeyir Hajibeyli, Aghshin Alizade, composer, music*

Giriş

Azərbaycan musiqi mədəniyyətində konsert janrının yaradılması Üzeyir Hacıbəylinin musiqili - səhnə əsərlərindəki rəqs nömrələrində müşahidə olunur. Bəstəkar Aqşin Əlizadə öz təkrarsız yaradıcılığı ilə Azərbaycan musiqi mədəniyyətində bir iz qoymuşdur. Azərbaycan musiqi mədəniyyətinin inkişafında misilsiz xidmətləri olmuş bəstəkarlardan Qara Qarayev, Süleyman Ələsgərov, Tofiq Bakıxanov, Azər Rzayev, İsmayıl Hacıbəyov, Aqşin Əlizadə konsert janrına müraciət etmişlər. Müxtəlif illərdə yazılan bu konsert nümunələri bir növ Azərbaycan musiqisinin keçdiyi inkişaf yolunu sanki təcəssüm etdirir.

Azərbaycan musiqi mədəniyyətinin parlaq nümayəndələrindən biri olan Əlizadə Aqşin Əliqulu oğlu 1937-ci ildə Bakıda anadan olmuşdur. İlk musiqi təhsilini Bülbül adına orta musiqi məktəbində almış, daha sonra isə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının professoru Cövdət Hacıyevin bəstəkarlıq sinfində təhsil almışdır. Gənc bəstəkarın inkişaf etməsində xalq musiqimizi dərindən bilməsi, əməksevərliyi, həssas forma duyumu, daima kamilləşmək, öyrənmək həvəsi - onun müəllimi Cövdət Hacıyevin böyük rolunu qeyd etməliyik. Görkəmli bəstəkar Qara Qarayevdən də mütəmadi olaraq məsləhətlər almışdır. Böyük bəstəkarın həssas və qayğıkeş rəhbərliyi ilə musiqi sənətinin Bela Bartok, İqor Stravinski, Sergey Prokofyev Dmitri Şostakoviç, Qara Qarayev və digər ustadların təcrübəsindən mənimsəmişdir.

Konservatoriyanı bitirərkən gənc bəstəkarın diplom işi bir hissəli "Simfoniya" (1962) olmuşdur. Bəstəkarın bu əsəri "Zaqafqaziya baharı" festivalında I diploma layiq görülüb. Aqşin Əlizadə simfonik və kamera orkestrləri, fortepiano və xor üçün bir sıra maraqlı əsərlərin, kinofilmlərə, tamaşalara yazılmış musiqilərin müəllifidir.

Aqşin Əlizadənin bir peşəkar bəstəkar kimi yaradıcılığı çoxşaxəlidir. İstər irihəcmli, istərsə də kiçik həcmli əsərlərində hər zaman ümumbəşəri-sülh, əmin-amanlıq, insanların anaya, vətənə, torpağa, bir-birinə olan sevgi hissi ilə bağlı mövzularla yanaşı, milli dəyərlərə olan bağlılığı, onun qorunması uğrunda mübarizliyi, mövzulardakı müasir baxışı, aktuallığı hər zaman dinləyiciləri düşünməyə, səfərbərliyə, səmimiliyə çağırır. Bu ilk növbədə onun peşəkarlığının, zəngin dünyagörüşünün, gördüyü hər bir işə can yandıraraq olduqca həssaslıqla yanaşmasından irəli gəlir.

Azərbaycan Dövlət Konservatoriyasının tələbəsi olan Aqşin Əlizadə 1959-cu ildə gənc bəstəkarların yaradıcılığına Ümumittifaq baxışında iştirak etmişdir. Bəstəkarın ilk əsərlərində onun milli incəsənətin ənənələri ilə açıq-aydın bağlılığı duyulur, beləliklə, əsərlərində xüsusi lakoniklik, ifadə gözəlliyi, tembr boyalarından özünəməxsus tərzdə istifadə etməsi və digər xüsusiyyətləri üzə çıxır. Bəstəkarın "Kamera simfoniyası" əsərinin premyerası Moskvada bəstəkarlar evində olmuşdur. "Qara Qarayev respublika bəstəkarlarının plenumunda Aqşin Əlizadənin "Kamera simfoniyası" əsəri haqqında belə demişdir: "Elə bəstəkarlar vardır ki, artıq ilk əsərləri ilə ictimaiyyətin diqqətini cəlb edir. Bu bəstəkarların əsərlərindəki sənətkarlıq, ifadə səmimiliyi, onlar haqqında professional ustalar kimi danışmağa bizi məcbur edir. Onların gənc olduğunu unudursan. Şübhəsiz ki, belə ciddi bəstəkarlar arasında kamera orkestri üçün simfoniyanın müəllifi Aqşin Əlizadə də vardır"" (Qasımova, Bağırov, 1984: 68). "Kamera simfoniyası" əsərinə görə 1967-ci ildə Azərbaycan SSR Lenin komsomolu mükafatı laureatına layiq görülmüşdür. Sonrakı illərdə bəstəkarın yaradıcılığında kamera orkestrləri üçün yazılmış əsərlərində melodiyanın şəffaflığı, səslənmənin aydınlığı, formanın həmahəngliyi ilə diqqəti cəlb edir. Aqşin Əlizadənin musiqisi müasir və maraqlı tapıntılarla zəngindir. "Pastoral", "Aşıqsayağı" (1969-1970) pyesləri SSRİ bəstəkarlarının IV qurultayında müvəffəqiyyətlə səslənmişdir. 1972-ci ildə isə kamera orkestri üçün

"Uşaq suitası"nı yazmışdır. Onun yaradıcılığının maraq dairəsi çox genişdir. Onlara nəzər salanda, bu işə nə qədər məsuliyyətlə yanaşan bəstəkarın iç dünyasını müşahidə edirik.

Bəstəkarın əsərlərindəki xüsusi lakoniklik, ixtiraçılıq qabiliyyəti, fikir zənginliyi – bunların hamısı bəstəkarın professionallığını göstərir. Simfonik musiqidə kiçik formalara meyil göstərməsi və silsilələrin formalara tez-tez müraciət etməsi bəstəkarın əsərlərində də özünü göstərir. "Təntənəli marş" (1970), "Kənd süitası" (1973), "Abşeron lövhələri" (1977), "Qəhrəmanlıq musiqisini" (1978) və digər əsərlərini göstərmək olar.

"Bəstəkarın xor üçün 1970-ci ildə Leninin anadan olmasının 100 illik münasibətilə görkəmli türk şairi Nazim Hikmətin sözləri əsasında xor əsərləri, 1977-ci ildə Böyük Oktyabr sosialist inqilabının 60 illik münasibətilə xor və orkestr üçün "Bayram təntənəsi" əsərini yaratmışdır" (Qasımova, 1984: 207). Lakin bəstəkarın yaradıcılığının zirvəsi olan və xalq yaradıcılığı əsasında yazılmış, müşayiətsiz oxunan *a capella* "Bayatılar" (10 nömrə xor) və "İyirmialtılar" kantatasını göstərmək olar.

Azərbaycan musiqi mədəniyyətində xor kollektivinin və xor üçün əsərlərin yaranması Üzeyir bəyin adı ilə bağlıdır. Məhz 60-ci illərdə musiqi sənətinə öz böyük töhfələrini vermiş bəstəkarlardan biri kimi Aqşin Əlizadəni də qeyd etməliyik. Bəstəkarın "Bayatılar" silsiləsi xor musiqisinin ən qiymətli, mühüm yerlərindən birini tutur.

Hər yazdığı əsərdə qırmızı xətt kimi onun folklora, milli qaynaqlara, xalq həyatından alınmış lirik, məişət təsvirlərindən ibarət olan silsilədə bunu göstərmişdir. Onun əsərlərində olan bağlılığını, bu intonasiyaların içdən gəlməsinin də şahidi oluruq. Bəstəkarın yaradıcılığında xor əsərlərinin xüsusi bir yeri vardır. Bunun nəticəsi kimi, bəstəkarın xor əsəri ilk milli xor silsiləsi "Bayatılar" 10 nömrədən ibarətdir. Bəstəkar "Bayatılar" on miniatür xor əsərində lirika-məhəbbət mövzusunda xalq mətnlərini həssaslıqla interpretasiya edir. ""Bayatılar" adlı xor əsərinin özünəməxsus musiqi üslublu lad, melos, harmoniya, quruluş, faktura və şairədə təzahür etsə də, etiraf edək ki, onun ən müəmmalı və anlaşılmaz cəhəti ritm ilə bağlıdır" (Xalıqzadə, 1999: 166-185). "Bayatılar" Azərbaycan xalq yaradıcılığının dərin kökləri ilə sıx bağlıdır. Bayatılara müraciət edən bəstəkarlarımız burada xalqın kədərini, ictimai quruluşunu, şairanəliyi, zülmə qarşı etirazı, yadelli işğalçılara məruz qalmasını, azadlıq, xoşbəxtlik arzularını, məhəbbətə, ayrılığa, dostluğa aid təsirli obrazlar aləmini musiqidə məharətlə əks etdirir.

Bəstəkarın yaradıcılığında xor sənətinə meyli onun yaradıcılığında bu sahənin aparıcı rolunu müəyyənləşdirmişdir. "Bayatılar" silsiləsini Aqşin Əlizadə 1969-cu ildə yazmışdır. "Bayatılar" - 1. "Dağlarda", 2. "Mən aşiqəm", 3. "El-obanı gəzərəm", 4. "Bir don aldım", 5. "Dilə gəldi", 6. "Ağ alma", 7. "Ağac ağaca yovuq", 8. "Köynəyi yaşıl oğlan", 9. "Al çuxa", 10. "Olaydım" nömrələrindən ibarətdir. Silsilədə sərbəst metr və ölçünün tez-tez dəyişməsinə (3/4, 5/8, 8/6, 2/4, 4/4, 6/4), səslərin növbələşməsinə də rast gəlirik. Metroritmin dəyişkən olması da əsərə sərbəstlik gətirir. Daha sonra burada imitasiyalı polifoniya vardır. Bəstəkar insanlara anlatmağa çalışmaq istədiyini məhz musiqi ilə "Bayatılar" silsiləsində səslənməsinə nail olmuşdur. Folklorun, aşıq sənətinin, nəhayət muğamın - səslə, oxumayla təsir qüvvəsinə malik olması məlum faktlardandır. Əsərdə milli amillərlə yanaşı, bəstəkarın yazı üslubunun təzahürlərini də aydın hiss edirik (Əliyeva, 2003).

"Azərilər" ("İyirmialtılar") kantatası bəstəkarın yaradıcılığının mühüm mərhələsi olmuşdur. Həmin əsəri iyirmi altı Bakı komissarlarından biri olan Məşədi Əzizbəyovun anadan olmasının yüz illiyinə həsr etmişdi. Kantata ümumilikdə 4 hissədən ibarətdir. Kantatanm ikinci hissəsi kiçik rekviyem "Dağın səsi" M.Əzizbəyovun xatirəsinə həsr olunmuş yubiley gecəsində səsləndirilib. Azərbaycanın igid oğulları heç zaman unudulmur, bəstəkarlar onları xatırlayır və ədəbi şöhrət əsərlərində adlarını yaşadırlar. Kantata da təbiət qüvvələri iyirmialtıların qəhrəmanlığını nəql edir. Kantata maraqlı ritmik və melodik quruluşa malikdir. Melodiyalarda xüsusiyyətlərinə görə bir-birindən fərqlənirlər. Kantatada ölçülər: 6/4, 5/4, 9/4. Kantatanm bütün melodiyaları axımlı, yadda qalan motivlər üzərində qurulub. Hissələrin adları da "Dənizin səsi", "Dağın səsi", "Baharın səsi", "Odlar yurdunun səsi" buradan yaranır. Aqşin Əlizadə Üzeyir Hacıbəylinin xalq musiqisindən bəhrələnərək özü üçün örnək gətirərək öz əsərlərində xalq musiqisindən və muğam intonasiyalarına əsaslanaraq kantataya rəngarənglik, səmimilik gətirmişdir.

"Azərilər" kantatası haqqında A.Tağızadə yazır: "Əsərdə xor, bəşəriyyətin səsi, yaxud xalqın səsi kimi mühüm ictimai ideyanı daşıyan orator kimi təqdim olunur!" Müəllif, kantatanın hər bir hissəsini təhlil edərək, bunun dramaturgiyasını rekviyemə bənzədir. Onun fikrincə, burada insan və təbiətin qovuşması ideyası əsas yer tutur (Qafulov, 2015: 56).

Melodik quruluşuna görə "Bayatılar" və "Azərilər" əsərləri bir-birinə daha yaxındır. Onların arasında forma, ritm və melodiya oxşarlığı çoxdur, hətta onların söz mətnində də bir-birinə yaxınlıq hiss olunur. Bəstəkarın xor əsərlərinin özünəməxsus inkişaf prinsipləri və təsir qüvvəsi var.

Bəstəkarın "Azərilər" kantatası Azərbaycan musiqi mədəniyyəti üçün dəyərli töhfə olduğuna görə müəllif 1979-cu ildə Azərbaycan SSR Dövlət mükafatına layiq görülüb.

Əlbəttə, bəstəkar Cövdət Hacıyev musiqi mədəniyyətinin inkişafında, peşəkar musiqi kadrlarının hazırlanmasında, ən sevimli janrı olan simfonik musiqinin inkişafında misilsiz xidmətləri böyükdür və onun davamçısı kimi Aqşin Əlizadənin də əsərlərində Cövdət Hacıyevin səsləri duyulur. Aqşin Əlizadə 5 simfoniyanın müəllifidir. Birinci simfoniyası bəstəkarın diplom işi, ikinci simfoniyasına görə isə Lenin mükafatına layiq görülmüşdür. Üçüncü simfoniyasının dramaturji forması muğam prinsiplərində əsaslanmışdır, burada birinci "Bayatı - Şiraz" muğamına, ikinci mövzu isə "Azərbaycan" rəqsi, hansı ki, bu ritm əsərin əsasını təşkil edir. Müəllif musiqi folkloruna xas olan intonasiya və ritmlərlə müasir ifadə vasitələrinin əlaqələrinə baracıqla nail ola bilmişdir. Milli dramaturji axtarışlar dördüncü simfoniyasıdır ki, bu əsəri bəstəkar tenor - solist üçün bəstələyib, burada "Şur", "Çahargah", "Segah", muğam və muğam şöbələrinin intonasiya çalarlarını duyuruq. "Simfoniya həmçinin, Azərbaycan muğamlarının variasiyalı inkişaf prinsipinə əsaslanmışdır. Müəllif onun dramaturgiyasına "Gül açdı" populyar xalq mahnısının melodiyasını daxil etmişdir. Əsərin sonunda muğamvari oxumanın orkestrə qoşulması simfoniyanın dramaturgiyasını bitkinləşdirir" (Zöhrabov, 1997: 61-70). Beşinci simfoniyası muğam simfoni-yasıdır ki, hansı ki, bəstəkar burada da milli musiqi alətlərimiz - sazın - aşıq musiqisinə yaxınlığı, zurna - qəhrəmanlıq, ney alətinin isə dərin kədər obrazlarını simfonik orkestrə daxil etmişdir, bu da simfoniyanın gözəl, rəngarəng tembr çalarları ilə səslənməsinə, parlaq orkestr boyaları ilə orkestrin səslənməsinə nail olmuşdur.

Aqşin Əlizadə kamera-instrumental janrlarında da müxtəlif əsərlər yazmışdır. Hətta bəstəkar özü qeyd edirdi: ""Mən kamera musiqisinə çox bağlıyam. Ona böyük üstünlük verirəm. Bu da təsadüfi hal deyil. Axı, kamera orkestri, kamera musiqisi heç də sadə olmayan çoxlu imkanların sirlərini özündə cəmləşdirir. Musiqi alətlərinin rəngarəng şəkildə bir-birilə uzlaşdırılması, onların hər birinin zənginliyini açmaq - bütün bunlar çox mürəkkəb və qiymətlidir" (Zöhrabov, 1997: 61-70). Bəstəkarın skripka ilə fortepiano üçün "Portret" adlı sonatası, fortepiano üçün "Dastan" pyesi onun kamera - instrumental musiqisinin ən dəyərli nümunələrindəndir.

"Aqşin Əlizadə teatrın, rəqs sənətinin təbiətini duyan müəllifdir. Deməli, balet onun yaradıcılıq axtarışlarının müəyyən mərhələsinin məntiqi nəticəsi kimi meydana çıxmışdır. Digər tərəfdən Aqşin Əlizadə qeyd edir: "Baleti simfoniya kimi bəstələyirəm. Lakın unutmaq olmaz ki, səhnə əsəri ilk növbədə tamaşaçılara ünvanlanıb. Teatr üçün yazan bəstəkar əsərin tam "ağa"sı olmaq fikrindən birdəfəlik əl çəkməlidir. Çünki, burada rejissor, baletmeyster tamaşanın bərabərhüquqlu müəllifi kimi çıxış edir" (Dadaşzadə, 1992: 14-15).

Aqşin Əlizadə 3 baletin müəllifidir. "Babək", "Qafqaza səyahət" və "Ümid valsı". "Babək" baleti ilk dəfə 20 may 1986-cı ildə tamaşaya qoyulmuşdur. 1986-cı ildə yazılan iki pərdəli ilk Azərbaycan baletidir. Bəstəkar burada Qara Qarayevin və Arif Məlikovun balet dramaturgiyasının bəzi elementlərindən - adajio və duet səhnələrindən, kütləvi rəqslərdən istifadə etmişdir. Tarixi hadisələr hər zaman yaradıcı insanların həyatında izlər qoyur və beləliklə də, balet tarixi - qəhrəmanlıq mövzusunda yazılmış, xalqın çəkdiyi zülm, etirazlar səciyyələnmişdir. Baletin librettosu baletmeysterlər - Rəfiqə Axundova və Maqsud Məmmədov, süjeti İliya Selvinskinin "Babək" faciəsindən götürülmüşdür. Baletin səhnə tərtibatı isə Tahir Salahova aiddir. Aqşin Əlizadənin "Babək" baleti ilk səhnə əsəridir. Bəstəkar ilk öncə Qələmini "Cəngi", "Azərilər" kantatasında sınadıqdan sonra "Babək" baletini yazmaq fikrinə düşmüşdür. Bəstəkar baletdə öz milli ruhunu, muğamları, rəqsləri, səslərin bir-birilə ahənginin yaranmasına nail olmuşdur. Bəstəkar baletin süjetində Azərbaycan tarixində Babək üsyanı dövrünü əks etdirmişdir.

Görkəmli bəstəkarımız Aqşin Əlizadənin "Ümid valsı" baleti isə 21 iyun 2008-ci ildə Azərbaycan Dövlət Opera və Balet teatrının səhnəsində tamaşaya qoyulmuşdur. İlk öncə bəstəkar əsəri "Qəmli vals" adlandırmaq istəyib, sonralar bu fikirdən daşınaraq "Ümid valsı" qoymuşdur. Bəstəkarın "Ümid valsı" baletində librettonun müəllifi bəstəkardır, xoreoqraf Pulumb Agilliudur. Azərbaycan tarixində ilk ədəfə olaraq, burada müsəlman Şərqində ilk qızlar məktəbinin yaradıcısı, millətin tərəqqisi naminə böyük işlər görmüş Zeynalabdin Tağıyevin surəti canlandırılmışdır. Baletin lirik xəttini Səlminaz və Elmuradın şairanə məhəbbət aləmini - adajio və vals nömrələri təşkil edir. Bəstəkar xoreoqrafiya qanunlarını yaxşı bilərək milli musiqi cizgilərini Avropa rəqs formaları olan adajio, variasiya və valslarda məharətlə birləşdirərək, maraqlı musiqi nömrələri yaratmağa nail olmuşdur. Bəstəkarı yazdığı baletlərində mürəkkəb fəlsəfəlilik, ictimai- əhəmiyyətli mövzuları açması, psixoloji, dinamik inkişaf ustalığı və bütün bu komponentlərin əsas ideyası məzmunun açılmasına tabe edilmişdir.

Kino musiqisində - bəstəkar simfoniya, balet, kamera əsəri, vokal-simfonik əsərlərlə bərabər kino musiqi sahəsində də çalışmışdır. "Yerin qocaman sakini", "Bu, Səttar Bəhlulzadədir (film, 1969)", "Axtarış həvəsi" (film, 1970), "Tütək səsi" (film, 1975) və digər filmlərin musiqisini Aqşin Əlizadə bəstələmişdir.

Aqşin Əlizadənin hər bir əsəri həm milli, həm də əsl novator əsər kimi yadda qalır və qavranılır. "Öz əsərlərində təkrarlığa, təqlidə yol vermir, milli musiqimizin əsrlərdən bəri davam edən nailiyyətlərini mütərəqqi dünya musiqisi ilə üzvi surətdə yeni formalarda əlaqələndirməyə səy göstərir" (Dadaşzadə, 1999: 52-64). Bəstəkar daima axtarışlar aparmış və bu axtarışlarda hər dəfə öz yeni bədii həllini tapmışdır.

Nəticə

Aqşin Əlizadə Azərbaycan musiqi mədəniyyətinin inkişafında ictimai xadim kimi böyük işlər görmüşdür. Aqşin Əlizadənin musiqisinin bir çox xarakterik cizgiləri, melodikasının vokal təbiəti məhz bu sahənin xüsusiyyətlərindən yarandığını görürük. Əsərlərindəki öz musiqisinə möhkəm bağlılığı, parlaq melodizm diqqəti cəlb edir. Bəstəkar Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin katibi (1979-1985-ci illərdə), 1985-1990-cı illərdə birinci katib olmuşdur. 60 illik yubileyi münasibətilə "Şöhrət" ordeni ilə təltif olunmuşdur. Bakı Musiqi Akademiyasında gənc musiqiçi nəslinin yetişməsində böyük xidmətləri vardır.

Ədəbiyyat

1. Qasımova, S., Bağırov, N. (1984). Azərbaycan sovet musiqi ədəbiyyatı. Bakı, 68 s.
2. Xalıqzadə, F. (1999). Aqşin Əlizadənin musiqisində ritmin ifadəliliyi və milli kökləri. "Azərbaycan musiqisinin tədqiqi problemləri" (elmi məqalələr toplusu, III buraxılış). Bakı, Elm, s.166-185.
3. Əliyeva, F. (2003). Aqşin Əlizadə. "Musiqi dünyası", 1-2 (15).
4. Qafulov, A. (2015). Aqşin Əlizadənin xor əsərləri. Bakı, 52 s.
5. Zöhrabov, R. (1997). Aqşin Əlizadə. "Bəstəkarlarımızın portreti" kitabı. "Gənclik" nəşriyyatı, Bakı, s.61-70.
6. Zöhrabov, R. (1992). Lirik nəfəsli sənətkar. Bəstəkar haqqında söz. Bakı, s.30-33.
7. Dadaşzadə, Z. (1992). Aqşin Əlizadə. Bakı, s.14-15.
8. Dadaşzadə, Z. (1999). Aqşin Əlizadənin üçüncü və dördüncü simfoniyalarının kompozisiya xüsusiyyətləri haqqında. "Simfoniyanın fəzası. 1970-80-ci illər Azərbaycan simfoniyası: əsas təmayülləri". Bakı, "Nurlan", s.52-64; 76-88.
9. Hacıbəyli, Ü. (1996). Ensiklopediyası. Bakı, Azəməşr, 302 s.

Göndərildi: 02.06.2024 Qəbul edildi: 19.07.2024